# ADNSU-nun elmi-tədqiqat universitetinə çevrilmə potensialı böyükdür

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) Azərbaycanın təhsil sistemində xüsusi yeri olan ali məktəblərdən biridir. ADNSU-nun yeni rektoru kimya elmləri üzrə fəlsəfə doktoru, dosent Rüfət Əzizov AZƏRTAC-a müsahibəsində universitetin elmi-tədris potensialından və aparılacaq islahatlardan danışıb. "Azərbaycan müəllimi" müsahibəni təqdim edir.



## Rüfət Əzizov:

## "Universitetdə çox yaxşı ölçülə bilən meyarlara əsaslanan keyfiyyət təminatı sistemi qurulmalıdır"

*– Rüfət müəllim, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində hansı islahatları aparmağı planlaşdırırsınız?*

– Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ölkəmizin aparıcı ali məktəbləriindən biridir və ona rəhbərlik etmək olduqca məsuliyyətli işdir. Çalışacağam ki, mənə göstərilən etimadı tam doğruldum.

Bilirsiniz, islahatların müəyyən məqsədi, hədəfləri olmalıdır. Ali təhsil sahəsində tədris, elmi fəaliyyət, elmin innovasiyaya çevrilməsi, beynəlmiləlləşmə kimi mühüm istiqamətlər var. Məqsədlərimizdən biri tədrisin inkişafıdır. Biz müəyyən etməliyik ki, iş dünyası və sənayenin tələblərinə uyğun kadr hazırlanmasına nə dərəcədə nail oluruq. Burada tələbəyə keçirilən dərslərin günün tələbinə uyğunluğu, dərs vəsaitlərinin bu tələbləri nə dərəcədə ödəməsi, işəgötürənlərin həmin məzmunun tərtib olunmasında nə dərəcədə iştirakı mühüm məsələlərdir ki, onları təhlil edəcəyik. Həmin təhlildən müəyyən tövsiyələr irəli gələ bilər. Ola bilər ki, məzmun yaxşı tərtib edilir, lakin tələbəyə düzgün çatdırılmır. Bu baxımdan tədris prosesində klassik yanaşmalarla yanaşı, layihə əsaslı yeni metodların, eləcə də tələbənin bilik-bacarıqlarının qiymətləndirilməsində yeni metodlardan istifadə ilə bağlı müəyyən islahatlar ola bilər.

*– Bəs bu yenilənmə ADNSU müəllimlərinə çətinlik yaratmayacaq?*

– Biz əmin olmalıyıq ki, müəllimlərin istər rəqəmsal bacarıqları, istər yeni vəsaitlərdən istifadə, istər xarici dil bacarıqları həmin o yeni məzmunun tətbiqinə imkan yaradır. Şübhə etmirəm ki, bizim professor-müəllim heyətinin böyük potensialı var. Lakin peşəkar inkişafla bağlı hansısa dəstəkləyici təlimlərə və proqramlara ehtiyac ola bilər. Ehtiyac olarsa, biz onu təmin edəcəyik. Əlavə olaraq, gənc kadrların da professor-müəllim heyətinə davamlı cəlb olunması bu məsələlərdə daha sürətlə inkişaf etməyimizə gətirib çıxaracaq.

*– Elmin innovasiyaya çevrilməsi istiqamətində ADNSU-da vəziyyət necədir?*

– ADNSU-nun elmi-tədqiqat universitetinə çevrilmə potensialı böyükdür. Burada fundamental tədqiqatlar aparılır və onların nəticələri var. Məqalələr dərc olunur, beynəlxalq elmmetrik bazalarda yerləşdirilir. Lakin elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması vacib məsələdir. Əgər bizim tədqiqatlar sənayenin tələbatına uyğun olarsa, daha çox eksperimental olarsa, o halda neft-qaz, neft-kimya şirkətlərini, müəssisələrini maraqlandıra bilər. Bu istiqamətdə ölkədə potensial çoxdur. Bir də belə hal olur ki, fundamental tədqiqatların özü yeni bir bazar yaradır. Burada iki yol var: ya innovasiyaya tələb var, ya da innovasiya özü tələb yaradır. Fikrimcə, tədqiqatçılarla yanaşı, bizə elmi-tədqiqat menecerləri də lazımdır. Onlar elmi-tədqiqatları biznes qurumları ilə əlaqələndirən körpü rolunu oynayacaqlar. Onlar yaxşı layihə hazırlayan, onu iqtisadi baxımdan əsaslandıran, bazarda rəqibləri görə bilən mütəxəssislərdir. Biz adətən elm və bazarın adını bir yerdə çəkəndə cəmiyyətdə düzgün qəbul olunmur. Fundamental tədqiqatlarla yanaşı, eksperimental tədqiqatlara da üstünlük verilə bilər. Bütün tədqiqat sualları magistratura, doktorantura proqramlarına uyğunlaşdırılarsa, daha faydalı bir iş görmüş olarıq. Əlbəttə ki, bizim beynəlxalq əməkdaşlığa ehtiyacımız olacaq. Xarici universitetlər ilə professor-müəllim, tələbə mübadiləsi ola bilər. Bu, çox vacibdir. Yəni xaricdən gələn müəllim bu mühiti yeniləyə bilər, eləcə də əcnəbi tələbələrin burada təhsil tələbatının ödənilməsi mühiti yeniləyir.

*– Dəyişikliklər yəqin idarəetməni də əhatə edəcək?*

– Bəli. Xüsusilə funksional şöbələrlə bağlı məsuliyyətlər, onların iş həcmi daha yaxşı müəyyən olunmalıdır. Keyfiyyət təminatı bütün struktur bölmələrə inteqrasiya edilməlidir. Əməkdaşın fəaliyyətinin keyfiyyət göstəriciləri olmalıdır. Bəzən deyirlər ki, çox yaxşı müəllimdir. Sual yaranır: necə müəyyən etdiniz? Bunu keyfiyyət təminatı bizə deməlidir. Gəlin baxaq görək, tələbələr həmin müəllimin dərs keçməsini necə qiymətləndirir? Bunun üçün də universitetdə çox yaxşı ölçülə bilən meyarlara əsaslanan keyfiyyət təminatı sistemi qurulmalıdır. Biz həm tədrisi, həm elmi-innovativ fəaliyyəti ölçə bilməliyik. Qərarlarımız emosiyalar və şəxsi mülahizələr əsasında olmamalıdır. Hər şeyi rəqəmlər, standartlar, keyfiyyət sistemi özü deyə bilməlidir. Bu mənada, idarəetmədə müəyyən təkmilləşmələrə ehtiyac olacaq.

*– İslahatlardan gözləntilər nə qədər vaxta reallaşa bilər?*

– Çox istərdik ki, universitetimiz bütün hədəflərə tez bir zamanda çatsın. Amma bu sürət əlimizdə olan resurslardan, potensialdan asılı olacaq. Burada həm maddi-texniki baza, həm maliyyə, həm professor-müəllim heyətinin bu dəyişikliyə uyğunlaşması amilləri var. Nə dərəcədə sürətli gedəcəyimizi indi demək çətindir.

*– ADNSU ölkəmizdə üç universitetdən biridir ki, nüfuzlu QS, THE beynəlxalq reytinqlərində yer alır və ildən-ilə irəliləyir. Bu istiqamətdə yaxın perspektiv üçün hədəfləriniz nədir?*

– Beynəlxalq reytinqlər bizim üçün əsas məqsəd deyil. Beynəlxalq reytinqlər çox yaxşı alətdir ki, biz ona baxaraq hansı yerdə olduğumuzu görürük. Məsələn, biz görürük ki, elmlə bağlı göstəricilərdə yaxşılaşmağa ehtiyac var, beynəlmiləlləşməyə ehtiyac var, hansısa meyarda yaxşıyıq. Əlbəttə ki, reytinqlərdə iştirak müəyyən cəsarət tələb edir. ADNSU-nun reytinqlərdə yüksək sürətlə irəliləməsi onun böyük potensialından xəbər verir. Biz öz işlərimizi düzgün qura bilsək, qısa müddətdə daha sürətlə gedə bilərik. Elmi-tədqiqat universiteti olmaq istiqamətində işlər nə qədər güclənərsə, o meyarlara ciddi təsir göstərəcək. Universitet beynəlxalq aləmdə tanındıqca onun akademik reputasiyası yüksələcək və buna müvafiq aldığı ballar da çoxalacaq. İşəgötürənlərlə də nə qədər çox işləsək, o sahədə reytinq balımız artacaq. Bu, avtomatik olaraq universitetin reytinqlərdə inkişafına gətirib çıxaracaq.

*– ADNSU tələbə qəbulunda hər il rekord yeniləyən ali məktəblərdən biridir. Növbəti tədris ili üçün ADNSU-ya qəbul planının artması, yeni ixtisasların açılması nəzərdə tutulurmu?*

– Ümumiyyətlə, dövlətimizin təhsil strategiyasında ali təhsilin əlçatan olması prioritet istiqamətlərdən biridir. Hər il qəbul planında dövlət sifarişli yerlərin sayı artırılır. ADNSU kifayət qədər böyüyüb, tələbələrimizin sayı çoxdur. Məncə, biz qəbul planının artırılmasına ehtiyatla yanaşmalıyıq və bir tələbəyə xərclədiyimiz maliyyə haqqında yenidən düşünməliyik. Maliyyə birbaşa keyfiyyət deməkdir. Bu gün bir tələbəyə təqribən 2500-2700 manat maliyyə ayrılır, lakin bu iki dəfə çox olarsa, biz daha yaxşı mühəndis yetişdirə bilərik. Bunun həm laboratoriya tərəfi, həm müəllimin əməkhaqqı tərəfi var və s. Gərək biz maliyyəni elə səmərələşdirək ki, tələbə sayının artımını deyil, keyfiyyətin artırılmasını təşviq etsin. Yəni davamlı böyüməklə keyfiyyətin təmin olunması uzlaşmalıdır. Bəzən deyirlər ki, filan universitetdə yerlər 100 faiz doldu. Bu, nailiyyətdirmi? Məncə yox. Onsuz da dövlət şərait yaradır ki, vətəndaşları daha çox ali təhsil alsın. Yəni qəbulun artırılması, daha çox tələbənin universitetə gəlməsi ali məktəbin deyil, dövlətin nailiyyətidir ki, vətəndaşının təhsil alması üçün universitetə vəsait ödəyir. Universitetin nailiyyəti daha çox keyfiyyətlə bağlı olmalıdır.

*– ADNSU vaxtilə əcnəbi tələbələrinin sayı ilə öndə gedirdi. Əcnəbi tələbələrin cəlb edilməsi üçün hansı işlər nəzərdə tutulur?*

– Bu məsələdə biz nəzərə almalıyıq ki, dünyada həm universitetlərin sayı artır, həm də əcnəbi tələbələrin cəlb edilməsi uğrunda ciddi rəqabət mövcuddur. Əlbəttə ki, ADNSU-nun potensialı böyükdür, tədrisi ingilis dilində aparılan çoxlu ixtisaslarımız var. Keyfiyyəti saxlamaqla onların sayı artırıla bilər. Tələbələri hansı ölkələrdən cəlb edəcəyimizi, onlar üçün hansı ixtisasların tədrisinə ehtiyac olduğunu müəyyən etməliyik. Əcnəbi tələbələr üçün təkcə təhsil deyil, müəyyən tələbə mühitinin yaradılması da vacibdir. Yataqxanalar təmir olunmalı, müəyyən standartlara uyğun gəlməlidir. Çünki tələbəlik təkcə oxumaqdan ibarət deyil, mədəni mühit də vacibdir. Biz mühitə görə daha rəqabətli ola bilərik. Mən demirəm ki, elmə görə biz tezliklə rəqabətli olacağıq. Amma tədrisə, mühitə, mədəniyyətimizə görə, eyni zamanda, öz professor-müəllim heyətinin potensialına görə rəqabətli ola bilərik. İlkin mərhələdə əcnəbi tələbələr üçün təqaüdlər ayırmaq, onlardan ən yaxşı göstəricisi olanlara ödənişsiz təhsil imkanı yaratmaq olar. Beləliklə, həmin tələbələrdə yaxşı təəssürat formalaşacaq və başqaları ilə paylaşılacaq.

*– Dövlətimiz "yaşıl enerjiyə" keçidi özünün əsas prioritetlərindən biri elan edib. ADNSU bu sahə üçün kadrların hazırlanması işinə nə kimi töhfə verir?*

– ADNSU-da yaşıl enerji ilə bağlı ayrı-ayrı ixtisaslar var. Böyük Britaniyanın Vorvik universiteti ilə magistratura səviyyəsində ikili diplom proqramımız da var. Lakin biz dayanıqlı inkişaf, iqlim dəyişikliyi, yaşıl enerji ilə əlaqəli sahələri bir ixtisas kimi nəzərdə tutmamalıyıq. Bu, düşüncə tərzidir, təfəkkürdür və bütün ixtisaslara inteqrasiya edilməlidir. Əmin olmalıyıq ki, bizim yetişdirdiyimiz mühəndis hansısa şirkətin rəhbəri olanda onun verdiyi qərarlar təkcə maliyyə göstəricilərinə görə deyil, eyni zamanda, onun təfəkküründə olan yaşıl enerji ilə bağlı bilik və bacarıqlarına əsaslanacaq. ADNSU-da oxuyan tələbə dörd il ərzində burada yaşıl enerjidən istifadəni əyani görməlidir. Bu, sudan, enerjidən istifadə, nəqliyyat məsələlərində, tullantıların idarə olunmasında özünü göstərə bilər. Bu halda təsir daha çox olar, nəinki yaşıl enerjini bir ixtisas kimi tədris edəndə.

*– Məzunların əmək bazarında rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün hansı addımları atmağı planlaşdırırsınız?*

– ADNSU-ya tələbələr yüksək balla qəbul olunurlar. Ümumiyyətlə, son 25-30 ildə kadr potensialımız neft-qaz sənayesindədir. Bu gün də ölkəmiz fəxr edə bilər ki, neft-qaz, kimya mühəndisləri istiqamətində dünyada rəqabətqabiliyyətliyik. Bu gün azərbaycanlı gənc mühəndislər Küveytdə, Qətərdə, İngiltərədə böyük meqalayihələri idarə edirlər. Təbii ki, yaxşı kadrlar da ora gedib. Davamlı kadr hazırlığını həyata keçirmək üçün, dediyim kimi, sənaye ilə əməkdaşlıq vacibdir. Bunun üçün əlimizdə institusional alət olmalıdır. Hazırda sənaye tələbələrin təcrübə keçməsinə şəraiti könüllü yaradır. Onlarda institusional öhdəlik yoxdur, istəsələr edərlər, istəməsələr yox. Amma ADNSU-da tədrisin məzmununun, proqramların yenilənməsi, işəgötürənlərin bu prosesdə iştirakı nəticəsində bizim institusional nailiyyətlərimiz ola bilər. Tələbə müəssisəyə ekskursiya kimi getməməlidir. Onun əlində dəqiq metodik vəsait olmalıdır. Məsələn, laboratoriya işlərinin bir qismini biz sənayeyə keçirə bilərik. İstehsal xəttinin texniki parametrlərindən tutmuş proseslərin idarəolunması, keyfiyyətə nəzarət sistemi, təmir işlərinin planlaşdırılması, elektrik sistemi, su, qaz sistemləri, körpülü kranlar, nəqliyyat və s. – bütün bunların hamısını öyrənməlidir. Biz ona uyğun metodik vəsaitlər tərtib etməliyik. Bunun üçün biz seçmə dərslər edə bilərik ki, bu, fənn əsaslı deyil, mövzu əsaslıdır. Seçmə dərs zamanı tələbə bir dəfə kabel istehsalı zavodunu öyrənə bilər, növbəti dərs neft-qaz terminalında çirklənmiş suyun emal edilməsi prosesini öyrənə bilər və s. Bir seçməli dərs bir istehsal müəssisəsi deməkdir. Amma onu etmək asan deyil. Müəllim də praktik seçmə dərsi tədris etməyi öyrənməlidir. Əlbəttə, dəyişiklik çox çətinliklə qəbul olunur. Lakin biz nəzərə almalıyıq ki, kadr hazırlayırıq. Bizim fəaliyyətimiz müəllimin dərs saatlarının davam etməsinə deyil, yaxşı kadr hazırlanmasına hesablanmalıdır. Bunun ətrafında hər hansı səmərəsiz bir proses varsa, biz onu düzəltməliyik. ADNSU komandası ilə birgə bu işlərin öhdəsindən gəlməyə çalışacağıq.

## YENİ rektor hədəflər

- Məqsədlərimizdən biri tədrisin inkişafıdır. Biz müəyyən etməliyik ki, iş dünyası və sənayenin tələblərinə uyğun kadr hazırlanmasına nə dərəcədə nail oluruq.
- ADNSU-nun elmi-tədqiqat universitetinə çevrilmə potensialı böyükdür. Burada fundamental tədqiqatlar aparılır və onların nəticələri var.
- Universitetdə çox yaxşı ölçülə bilən meyarlara əsaslanan keyfiyyət təminatı sistemi qurulmalıdır. Biz həm tədrisi, həm elmi-innovativ fəaliyyəti ölçə bilməliyik.
- Çox istərdik ki, universitetimiz bütün hədəflərə tez bir zamanda çatsın. Amma bu sürət əlimizdə olan resurslardan, potensialdan asılı olacaq.
- ADNSU-nun reytinqlərdə yüksək sürətlə irəliləməsi onun böyük potensialından xəbər verir. Biz öz işlərimizi düzgün qura bilsək, qısa müddətdə daha sürətlə gedə bilərik.
- Qəbulun artırılması, daha çox tələbənin universitetə gəlməsi ali məktəbin deyil, dövlətin nailiyyətidir ki, vətəndaşının təhsil alması üçün universitetə vəsait ödəyir.
- Bu gün də ölkəmiz fəxr edə bilər ki, neft-qaz, kimya mühəndisləri istiqamətində dünyada rəqabətqabiliyyətliyik. Bu gün azərbaycanlı gənc mühəndislər Küveytdə, Qətərdə, İngiltərədə böyük meqalayihələri idarə edirlər.
- ADNSU-nun potensialı böyükdür, tədrisi ingilis dilində aparılan çoxlu ixtisaslarımız var. Keyfiyyəti saxlamaqla onların sayı artırıla bilər. Tələbələri hansı ölkələrdən cəlb edəcəyimizi, onlar üçün hansı ixtisasların tədrisinə ehtiyac olduğunu müəyyən etməliyik. Əcnəbi tələbələr üçün təkcə təhsil deyil, müəyyən tələbə mühitinin yaradılması da vacibdir.